# SEYİD OCAĞININ ŞÖHRƏTLİ ÖVLADI

*Keçmiş SSRİ-nin paytaxtı Moskvada və Rusiyanın digər regionlarında say-seçmə Azərbaycan övladlarının əksəriyyəti həmişə özlərini doğrultmuş, günəşli Odlar yurdunun hörmətini qat-qat ucaltmışlar. İstər elm-mədəniyyət sahələri olsun, istərsə də başqa sahələr - iqtisadiyyat, istehsalat, hüquq-mühafizə, hərbi, biznes yönlü istiqamətlərdə həmvətənlərimiz yetərincə fərqlənmişlər. Sovetin kosmonavtlar nəslinin bayraqdarı, general-mayor, professor Kərim Kərimov, Rusiyanın Milli Qəhrəmanı, mühəndis-konstruktor, iki dəfə Dövlət mükafatı laureatı, ən müasir sualtı hərbi gəmilərin ixtiraçısı Davud Paşayev, xalq rəssamı Tahir Salahov, LUKOİL şirkətinin prezidenti Vahid Ələkbərov və onlarla başqaları qonşu ölkənin tarixinə adlarını həqiqətən qızıl hərflərlə yazmışlar. Belə görkəmli simalardan biri də seyid ocağının varisi Mirəşrəf Fətiyevdir.*

*Mirəşrəf Mircəfər oğlunun maraqlı tərcüməyi-halı var. Moskvada yaşayan eloğlumuz nəsillikcə Azərbaycanın Yardımlı rayonunun Perimbel kəndindəndir. Bu qədim yaşayış məskəninin adı və ünvanı bütün respublikada yaxşı mənada bəllidir. Perimbeli "Seyidlər kəndi" kimi tanıyanlar da var, müqəddəs "pirlər ocağı" kimi təqdir edənlər də. Zatən, ruhən ulu Peyğəmbərimiz Həzrəti Mühəmmədə (s.ə.s.) çəkən, islami dəyərləri hər yerdə qoruyan, təbliğ edən, üstün tutan, haqqsevər, Allahsevər Perimbel camaatı kökə bağlılıqları ilə seçilirlər. Mirəşrəf Fətiyevin doğulduğu ailə də elecə də. Üç il öncə Moskvanın "Novosti" nəşriyyatı həmvətənimiz haqqında irihəcmli "Toçka obzora" ("Ömür yoluna boylanarkən") adlı kitab-albom çap etdirmişdir. Necə deyərlər, bu avtobioqrafik nəfis tərtib olunmuş rəngli şəkillər və publisistik düşüncələr kitabının müəllifi də Mirəşrəf müəllimdir, baş qəhrəmanı da...*

*Ötən il Moskvada olarkən ümumi tanışlıqdan istifadə edərək Fətiyevin telefonuna zəng açdım. "Buyurun, gəlin eloğlu, Nikulin - 19 ünvanında yerləşən ofisimdə sizi məmnuniyyətlə gözləyirəm". Sonra əlavə elədi: "Axı, biz deyəsən, sizinlə tanışıq" dedi və telefonunu söndürdü. Mən dərhal çək-çevir eləməyə başladım ki, "Nikulin - 19" harda yerləşir, şəhərin hansı metrostansiyasına yaxındır, ora hansı nəqliyyatla getmək yaxşıdır. Daha işi başından aşan həmyerlimizə zəng eləmək yersiz idi. Bu dəfə tələbə yoldaşım, bütün həmvətənlərimizin Rusiyada ümidgah kimi baxdığı Abuzər Bağırov yadıma düşdü. Nəhayət, onun köməkliyi sayəsində həmin ünvanı tapdım, Mirəşrəflə görüşdüm. Budur, o sentyabr günündəki müsahibənin mətni:*

**- Mirəşrəf müəllim, Moskvada vəziyyət necədir, bağışlayın ki, sizi işdən-gücdən ayırdım. Axı, sizin kimi görkəmli, hərtərəfli iş adamı üçün mövsüm iluzunu davam edir, bitmir.**

- Moskvadır da, dünyanın və Avropanın, bəlkə də ən çoxmillətli, narahat şəhəri. Adi günlərini yaşasa da, iqtisadi böhran və siyasi təlatümlər içində üzür, müvazinətini itirmir. Qaldı bir insan kimi öz qayğılarıma, həqiqətən işim başımdan aşır. Bir yandan "Moszelenstroy"da fəaliyyətim, digər tərəfdən Rusiya Xalqlar Dostluğu Universitetində müəllimliyim, başqa bir tərəfdən Dünya Azərbaycanlıları Konqresində və "Azər-Ros"da işlərim kifayət qədərdir. Mən işdən heç vaxt yorulmuram, əksinə, enerji götürürəm, çünki bilirəm ki, fəaliyyətimlə insanlara xidmət edirəm, xalqımın başını yad məmləkətdə ucaldıram.

**- Necə oldu ki, gəlib Rusiya Federasiyasının paytaxtına çıxdınız və ona könül bağladınız? Azərbaycanın ucqar dağ rayonu Yardımlı hara, Moskva kimi qarışıq bir şəhər hara? Axı, bu tünlükdən, adam sıxlığından baş çıxarmaq, yüksəlib mövqe qazanmaq hər oğulun işi deyildi.**

- Mən Yardımlı rayonunun Perimbel kəndindənəm, ancaq orada yox, Bakıda doğulmuşam. Sonra təzədən doğma od-ocağa köç eyləyən ata-anam bir daha təsdiq ediblər ki, onlar üçün yurd yeri ilk vətəndir, bu yerə bağlılıq isə candan-qandan mayalanıb, qidasını kökdən alıb. Mən Moskvada yaşayıram, bütün varlığımla isə Yardımlıya, kəndimə-kəsəyimə bağlıyam. Bakıya yolum düşən kimi düşünüb-daşınmadan cənuba üz tuturam. Gedib quzu otardığım yerlərə baş çəkir, çiyələk topladığım, cır mer-meyvə dərdiyim yamaclara dırmaşır, bulaqların sərin suyundan içir, dağların ucalığında kəpənək qanadlı, əlçatmaz uşaqlığımızın izlərini axtarır, ürək dolusu nəfəs dərirəm. Ailəmlə, övladlarımla birgə Yardımlıda olmaq lap qiyamətdir.

Deyəsən, sualdan bir qədər yayındım. Mən Moskavaya hamı kimi təhsil almağa gəldim. Şəhər ruhuma yatdı, yenə burada



qalacağım, iş tapacağım, mövqe qazanacağım mənə röya kimi görünürdü. Uşaq vaxtımdan zəhmətə alışmışam, atam Mircəfər həmişə halalı haramdan ayırmağı, ədalətli olmağı, düzlüyü övladlarına tövsiyə edirdi. Kimin ixtiyarı çatardı bir sözünü iki eləsin, yolundan azsın, sapsın, pis işlər görsün.

İqtisad elmləri doktoruyam, kafedra müdiriyəm. Şirkətim "Moszelenstroy" adlı-sanlı təşkilatdır və şəhərin yaşıllaşdırılması işi ilə məşğuldur. Dünyada ağac əkib-becərməkdən, yaşıllıq zolağı salmaqdan müqəddəs peşə yoxdur. Çünki bu sağlamlıq, gümrahlıq deməkdir. Moskva kimi iri, nəhəng şəhərdə bu vəzifəni başçılıq elədiyim şirkətə həvalə ediblərsə, bu yalnız şərəfdir, mənə olan inam-etibardır.

**- Rusiyanın paytaxtında bizimkilər çoxdur. Onlar vəhdət halında birləşə bilirlərmi, ümumiyyətlə, yurddaşlarımızın ayrı-ayrı icmalarda, müxtəlif diasporlarda təşkilatlanması necədir?**

- Mən Dünya Azərbaycanlıları Konqresinin sədriyəm, eləcə də, Moskvada azərbaycanlıların milli-mədəni muxtariyyət ittifaqı sayılan "Azər-Ros"da sədr müaviniyəm. Hər iki təşkilat sağlam dayaqlar üstündə bərqərar qurub, fəaliyyət göstərir. Deməliyəm ki, Rusiya da doğma Azərbaycan kimi tolerant ölkədir, qucağını müxtəlif millətlərə, dini icmalara geniş açıb. Sözsüz, bəzən xoşagəlməz hadisələrin baş verməsi də qaçılmazdır: bu, milli-etnik zəmində də olur, dini zəmində də. Ancaq Rusiya Federasiyasının prezidenti Vladimir Putin bütün bu kimi anormal halların və olayların qəti əleyhdarıdır. Hakimiyyət strukturlarına hər vaxt tapşırıq və göstəriş verir ki, həmin hadisələrin səbəblərini araşdırsınlar və kökünü kəssinlər.

İki ictimai təşkilatın rəhbəri kimi də üzərimə böyük vəzifə yükü düşür. Mən soydaşlarımızın heç bir probleminə biganə deyiləm. İndiyəcən yüzlərlə, bəlkə də minlərlə hüququ pozulan, ehtiyac içində yaşayan həmvətənimə kömək etmişəm: həm mənəvi, həm də maddi. Öz fəaliyyətimdə əsas üstünlüyü xalqlar dostluğuna, qardaşlığa, birliyə verirəm və bunun nəticəsindən zövq alıram. Axı, çoxmillətli Moskvada buna nail olmaq asan deyil. Qarabağ hadisələri başlayandan hamıtək bir azərbaycanlı kimi mənim də həyəcanım, narahatlığım artıb. Bizim gücümüz var ki, haqq səsimizi bütün dünyaya çatdıraq, bəyan edək. Bu mənada digər xalqların Moskvada fəaliyyət göstərən icmaları ilə tez-tez görüşlər keçiririk. İndi hamı bilir ki, Qarabağ Azərbaycanın əzəli torpağıdır, xeyli hissəsi işğal altındadır. Ermənistan işğalçı dövlətdir. Bütün bunları xristian aləmində başa salmaq söylədiyim kimi asan məsələ deyil.

**- Övladlarınızı yolunuzun davamçısı adlandırmaq olarmı?**

- İstəmirəm ki, kimsə süni surətdə kiminsə təsiri altında nələrisə təqlid eləsin. Allah bütün insanları eyni boyda, biçimdə, xarakterdə yaratmayıb, orijinal yaradıb. Mənim də dörd uşağım var: Mircavad, Mircavid, Mircabbar və Bəstiqız. Onlardan tələbə olanı da var, məktəblisi də. Onlara o sərbəstliyi vermişəm ki, hər kəs həyat yolunu özü seçsin. Əlbəttə, valideynlərin nəzarəti altında. Çünki balacalıqdan körpələri yetişdirmək, tərbiyələndirmək, məqsədə yönəltmək lazımdır. Onlar böyüyəndən sonra arzuları, istəkləri yaranır. Yenə öz xasiyyətlərinə uyğun surətdə.

**- Mirəşrəf müəllim, tez-tezmi Azərbaycana gəlirsiz, ya ancaq tədbirlərə təşrif gətirirsiniz? Axı, Dünya Azərbaycanlıları Qurultaylarına, Azərbaycan Konqresinin yığıncaqlarına qatılırsız.**

- Vallah, tədbirsiz, yığıncaqsız, seminarsız həftəm olmur. Bu ali məclislər gur keçir, xüsusən millətin taleyüklü məsələləri ortaya çıxanda. Vaxtilə mərhum ümummilli lider Heydər Əliyev bu kimi vacib məsələlərə vaxt ayırır, hamını bir araya yığırdı. İndi yenə o ənənə davam edir. Mən Azərbaycanın prezidenti cənab İlham Əliyevi sivil düşüncəli şəxsiyyət, yetkin siyasət adamı hesab edirəm. Avropa Olimpiya Oyunlarının Bakıda yüksək səviyyədə keçirilməsi elə başladığı uğurlu fəaliyyətinin davamı idi. Nəinki Avropaya, bütün dünyaya səs saldı.

Hər kəsin borcu Azərbaycana kömək etməkdir. Çünki ölkəmiz nə qədər inkişaf yolu keçsə də, müharibə şəraitindədir, çoxlu sayda qaçqını var. Mən doğma Perimbel kəndində məscid tikdirmiş, məktəb inşa etdirmişəm. Həmyerlilərimdən heç nəyi əsirgəmirəm, əsirgəməyəcəyəm də.

***Bu da qəhrəmanıma həsr elədiyim şeirin mətni:***

### *BÜTÖV MƏMLƏKƏTƏ OĞUL OLMUSAN*

***Moskvada yaşayan tanınmış soydaşımız Mirəşrəf Fətiyevə***

Böyük məsafələr qət eyləməklə,
Müqəddəs bir kökdən boy atmısan, sən.
Uzaq Moskvanı fəth eyləməklə,
Xalqının ruhunu oyatmısan, sən.

Yaratmaq, düzəltmək, qurmaq canında
Qanında nəslinin seyid qüruru.
Ən çətin günündə, çətin anında,
Köməyinə çatıb üzünün nuru.

Ağsaqqal önündə saxladın pərdə,
Tez başa çəkildin xeyirdə, şərdə.
Yüz yol otursan da Allahsız yerdə,
Bir yol oturmadın böyüksüz yerdə.

Öpdün torpağından, qoydun göz üstə,
Yarpaqtək dörd uşaq üstündə əsdin.
Şevrildi ən sadiq həmdəmə, dosta -
Mircavad, Mircavid, Mircabbar, Bəstin...

Vətən sevgisini çıxartdın taxta,
Dərddən kövrəlmisən, qəmdən dolmusan.
Sonra görmüsən ki, şöhrətli vaxtda,
Bütöv məmləkətə oğul olmusan.

Ömrün illərini vermirsən yelə,
Ürəyində yanan şam gətirmisən.
Mübarək Mirəşrəf adınla elə,
İnsanlıq adına şan gətirmisən.

**Ağacəfər Həsənli,**
**Bakı-Moskva**